**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**Filologiya fakültəsi**

**Təsdiq edirəm:**

**Filologiya fakültəsinin dekanı:**

**Dos.əv. E.H.Məmmədov**

# 2017-ci ildə filologiya fakültəsində yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələri haqqında qısa

# Hesabat

**Bakı-2017**

**Bakı Dövlət Universitetinin Elmi-tədqiqat hissəsinə**

**Filologiya fakültəsində fəaliyyət göstərən**

**Kafedra və laboratoriyaların 2017-ci il üçün**

**Elmi-tədqiqat işlərinin qısa**

**Hesabatı**

## I Giriş

Filologiya fakültəsində 15 kafedra, 4 laboratoriya fəaliyyət göstərir.Onlar aşağıdakılardır:

1. Azərbaycan ədəbiyyatı tarixi-prof. N.A.Paşayeva
2. Azərbaycan dilçiliyi-prof. S.Ə.Abdullayeva
3. Ümumi dilçilik-prof. Ə.Ə.Rəcəbli
4. Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası- prof.H.Əsgərov
5. Türkologiya- f.e.d. R.Əskərov
6. Azərbaycan şifahi xalq ədəbiyyatı- prof.S.H.Orucova
7. Dünya ədəbiyyatı-prof.C.Q.Nağıyev
8. Rus dili (Humanitar fakültələr üzrə)-prof.əv.Ə.M.Paşayeva
9. Rus dili (Təbiət fakültələri üzrə)-prof.M.M.Cəfərov
10. Rus dilçiliyi-prof.L.N.Quliyeva
11. Rus ədəbiyyatı tarixi-prof.A.C.Hacıyev
12. İngilis dili(təbiət fakültələri üzrə)-dos.A.Q.Abbasov
13. Alman və fransız dili-dos.E.N.Fərəcullayeva
14. İngilis dili (humanitar fakültələr üzrə ) – dos.B.İ.Hacıyev
15. Azərbaycan dili və nitq mədəniyyəti – dos.S.Abbasova

### Laboratoriyalar

1. “Dədə Qorqud” ETL – prof. N.Paşayeva
2. Azərbaycan dilinin tədqiqi məsələləri ETL-Ə.Y.Ağakişiyev
3. Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə-prof. N.Paşayeva
4. Türkoloji araşdırmalar- f.e.d.R.Əskərov

## II Strukturu və ştat cədvəli

Filologiya fakültəsində fəaliyyət göstərən 15 kafedrada 250 nəfərdən artıq müəllim çalışır.Onlar dərs yükünü yerinə yetirməklə bərabər hər il elmi iş də yazırlar.

III Kafedralarda aparılan elmi-tədqiqat işlərinin əsas istiqamətləri, adı, sayı, annotasiyası və yerinə yetirilməsi

### 1.Azərbaycan şifahi xalq ədəbiyyatı

1. S.H.Orucova – f.e.d., prof. – 1971-ci il
2. N.Q.Xəlilov-0.5 ştat, f.e.d., prof., dekan müavini-1949-cu il
3. E.Ə.Talıblı-fil.f.d., dos.-1958-ci il
4. M.M. Məmmədov-fil.f.d., dos.-1963-cü il
5. K.F.İslamzadə-fil.f.d.,,dos.-1967-ci il
6. Ü.A.Nəbiyeva-f.e.d., prof.əv. -1974-cü il
7. K.K.Həsənova – fil.f.d., müəl.0,5 ştat.- 1976-cı il
8. G.E.Axundova-böyük laborant, 0,5 ştat-1989-cu il

2017-ci ildə Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının əməkdaşları “Azərbaycan epik folklorunun janrları və onların xüsusiyyətləri” adlı ümumi üçillik problemin 7 mövzusu üzrərində çalışıblar.

Prof. S.H.Orucovanın “Azərbaycan dastanlarında mifik obrazlar” adlı elmi işində dastanlarda rast gəlinən Təpəgöz, Xızır Nəbi kimi mifik obrazlar, prof. N.Q.Xəlilovun “XX əsrin sonlarında (1990-2000) aşıq poeziyası və yazılı ədəbiyyat” adlı elmi işində Z.Yaqubun yaradıcılığında aşıq poeziyasına münasibət məsələsi, dos. E.Ə.Talıblının “Azərbaycan əfsanə və rəvayətlərinin nəşr və tədqiq tarixi” adlı elmi işində XX əsr Azərbaycan əfsanə və rəvayətlərinin nəşri və tədqiqi mərhələlər üzrə araşdırılır. Dos. M.M.Məmmədovun “Azərbaycan mifik təfəkküründə obrazlar (Xızır, Dədə Qorqud, Koroğlu və s.)” adlı elmi işində Xızır, Dədə Qorqud, Koroğlu kimi mifik obrazlar, bu obrazlarla bağlı əfsanələr,inanclar diqqətə çatdırılır, dos. K.F.İslamzadənin “Folklordakı bəzi rəmzlərin etnoqrafik mənşəyi” adlı elmi işində folklor mətnlərində ifadəsini tapan real və qeyri-real obrazlar, bəzi əşya və fəaliyyətlər etnoqrafik materiallara söykənməklə şərh olunur. Dos.Ü.A.Nəbiyevanın “Folklordakı bəzi rəmzlərin etnoqrafik mənşəyi” adlı elmi işində “Kitabi-Dədə Qorqud” eposunda verilən dövlət quruculuğu təcrübəsi, fil.f.d. K.K.Həsənovanın “Dastanda ənənəvi süjetlər” adlı elmi işində “Kitabi-Dədə Qorqud”da istifadə olunan erkən təsəvvür və etiqadlarla bağlı, dünya eposçuluğu və ənənəvi dastan süjetləri və s. araşdırılır.

## 2.Azərbaycan ədəbiyyatı tarixi kafedrası

Struktur və ştat cədvəli

1.N.A.Paşayeva -f.e.d,prof., kafedra müdiri, AMEA-nın m.ü.,0,5 ştat-1962-ci il
2.T.H.Hüseynov- f.e.d.,prof.,kafedra müdirinin müavini, 0,5 ştat-1938-ci il
3. T.M.Mütəllimov-f.e.d.,prof., AMEA-nın m.ü.-1932-ci il
4.A.Ə.Abbasov - f.e.d., prof.-1930-cu il
5.İ.S.Əliyeva- f.e.d.,prof.-1938-ci il
6.A.Ə.Məmmədova f.e.d., prof.-1945-ci il
7.V.S.Verdiyev- f.e.d., prof.-1958-ci il
8.N.Ş.Şəmsizadə-f.e.d., prof.-il?
9.S.M.İbrahimov-f.e.d.dos.,-1959-cu il
10.Y.N.İsmayılova- f.e.n., dos., 0,5 ştat-1962-ci il
11.L.S.Əliyeva-f.e.n., dos.-1959-cu il
12.M.T.Vəliyev-f.e.n., dosent-1960-cı il
13.J. F. Hüseynova-f.e.n.,dos.-1967-ci il
14.M.O.Bayramlı –f.e.n.,dos.-1958-ci il
15.S.M. Qocayeva –f.e.n., dos.-1971-ci il
16.M.O.Həsənova –fəlsəfə doktoru, dos., 0,5 ştat-1961-ci il
17.H.N.Abdiyeva-fil.f.d.,dos.-1948-ci il
18.İ.F.Rəhmanova- fil.f.d.,dos.-1962-ci il
19.T.T.Hüseynli- fil.f.d., dos., 0,5 ştat-1979-cu il
20. S.Ə.Sultanova – fil.f.d.,dos.əvəzi-1949-cu il
21.S.İ.Hüseynli- fil.f.d.,müəl., 0,5 ştat -1969-cu il
22. S.A.Abasova – fil.f.d.,müəl.,0,5 ştat -1973-cü il

Kafedrada aparılan elmi-tədqiqat işlərinin əsas istiqamətləri “Azərbaycan ədəbiyyatının ideya-bədii istiqamətləri”, problem “Azərbaycan ədəbiyyatının sənətkarlıq problemləri” və bu ilə təyin olunan kafedranın ümumi mövzusu “Azərbaycan ədəbiyyatının tədqiqi məsələləri”dir.

Prof. T.Hüseynovun “Əlisa Nicatın bədii nəsri” adlı elmi işində ədibin hekayə, povest və romanları, prof., AMEA-nın m.ü. T.Mütəllimov “S.Ə.Şirvani yaradıcılığında gülüş üsulları” adlı elmi

işində S.Ə.Şirvaninin yaradıcılığında tənqidi gülüşün əsas hədəfləri, prof. A.Ə.Abasovun "Kamal Talıbzadənin yaradıcılığı" adlı elmi işində tənqidçinin sinkretik xarakterli ədəbi irsi, onun Azərbaycan, rus, dünya ədəbiyyatı və ədəbi tənqid sahəsindəki xidmətləri, prof. İ.S.Əliyevanın "Şəhriyar şeirlərinin poetikası" adlı elmi işində şairin poeziyasının janr xüsusiyyətləri, prof. A.Ə.Məmmədovanın "Əli Daşqının yaradıcılığı" adlı elmi işində Güney Azərbaycanın tanınmış simalarından olan Əli Daşqının yaradıcılığı, prof. V.S.Sultanlının "Azərbaycan mühacirət dramaturgiyası" adlı elmi işində Azərbaycan mühacirət dramaturgiyası, prof.S.İbrahimovun "XIX əsr-XX əsr ədəbi yaradıcılıq prosesi" adlı elmi işində Azərbaycan klassiklərinin vahid Şərq ədəbiyyatı kontekstində yaradıcılığı, prof. Y.İsmayılovanın "Anarın "Dədə Qorqud" yaradıcılığı" adlı elmi işində Anarın "Dədə Qorqud" motivləri əsasında bədii yaradıcılığı, dos. L.Əliyevanın "Klassik bədii nəsrdə səc sənəti" adlı elmi işində ədəbiyyatşünaslıqda az araşdırılan səc sənəti, onun etimologiyası, yaranma tarixi, araşdırılması ilə bağlı olan müddəalara toxunulur, dos.M.Vəliyevin "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında qəhrəman və onun təqdimi" adlı elmi işində XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatında yaranmış qəhrəmanların xarakter və xüsusiyyətləri, dos. J.Hüseynovanın "Romantik ədəbiyyatın aktual problemləri" adlı elmi işində romantik ədəbiyyatın nümayəndələrinin yaradıcılığı, dos. M.Bayramlının ""Aldanmış kəvakib"də ironiya" adlı elmi işində M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərində kinayənin bir növü olan ironiya, dos. S.Qocayevanın "H.Cavid və M.A.Ersoy yaradıcılığında müştərək motivlər" adlı elmi işində M.A.Ersoy və Hüseyn Cavid yaradıcılığında müştərək motivlər, M.Həsənovanın "Ə.Haqverdiyevin dramaturgiyasında qəhrəman konsepsiyası" adlı elmi işində Ə.Haqverdiyevin ədəbiyyatımızda mövqeyi, onun dramaturgiyasının novator keyfiyyətləri, dos. H.Abdıyevanın "Mövlud Süleymanlının bədii nəsrində müharibə mövzusu" adlı elmi işində M.Süleymanlının "Ayın aydınlığı", "Qışqırıq", "Dünyanın işığı", "Sığırçı Gülümün ala iti" və s. kimi əsərlərində müharibə mövzusu, dos. İ.Rəhmanovanın "Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusu" adlı elmi işində "Qarabağ şikəstəsi", "Möcüzə", "Erməni adındakı hərflər" və s. kimi povest və romanlar, dos. əvəzi T.Hüseynovun "Hüseyn Cavidin tarixi-fəlsəfi pyesləri ("Peyğəmbər", "Topal Teymur") adlı elmi işində "Peyğəmbər" və "Topal Teymur" əsərlərinin ideya, məzmun, bədii forma özəllikləri, dos. əvəzi S.Sultanovanın "Əlisa Nicatın tarixi romanları" adlı elmi işində ədibin romanlarının ideya-məzmun, bədii sənətkarlıq xüsusiyyətlərivə s. problemlər araşdırılır.

2017-ci il plan işində kafedrada aparılan elmi-tədqiqat işlərinin əsas istiqaməti "Müasir Azərbaycan ədəbiyyatı", problem "Ədəbiyyatşünaslığın ümumi məsələləri". "Müasir Azərbaycan ədəbiyyatşünaslığının aktual problemləri" və bu ilə təyin olunan kafedranın ümumi mövzusu "Müasir Azərbaycan ədəbiyyatının aktual problemləri"dir.

## 3.Türkologiya kafedrası

Struktur və ştat cədvəli

1. R.B.Əskərov -f.e.d., kafedra müdiri, 1 ştat-1954
2. E.İ.Əzizov-f.e.d.,prof., 1 ştat-1947
3. M.D.Novruzov-prof., 1 ştat-1956
4. M.Ə.Məmmədov-f.e.d.,prof., 1 ştat -1958
5. F.A.Ağayeva-prof. əv., 1 ştat - 1955
6. İ.D.Vəliyev-dos., 1ştat-1937
7. Q.A.Abdullayeva-dos., 1 ştat-1952
8. G.Q.Vəliyeva-dos., 1 ştat-1944
9. S.M.Sadıqova-dos., 1 ştat-1962
10. G.Ş.Əliyeva-fəlsəfə doktoru,b/m.,0.5 ştat-1971
11. S.O.Ağayeva-dos.əv., 1 ştat-1972
12. F.Ə.Dursunova – dos.əv., 0.5 ştat-1973
13. A.C.Məmmədova-dos.əv., 1 ştat-1975
14. F.Q.Kərimli-dos.əv., 1 ştat-1973
15. Q.Ş.Xanməmmədov-müəl., 1 ştat-1963

16. S.Ə.Cəlilova-müəl., 0,5 ştat-1962
17. K.N.Nəcəfova- fil.f.d., 0,5 ştat-1974

2017-ci ildə Türkologiya kafedrasının əməkdaşları türk folkloru, qədim, orta əsrlər və müasir dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatı ilə qarşılıqlı əlaqələr istiqamətində tədqiqatlar aparmış, «Türk dillərinin quruluşu, tarixi və dialekt ayırmaları» adlı problem üzrə araşdırma aparmışlar.

F.e.d. R.B.Əskərovun "Türkmən ədəbiyyatı (klassik dövrdən sovet dövrünə qədər)" adlı elmi işində Nurməhəmməd Əndəliblə başlayan, Abdulla Şahbəndə, Dövlətməmməd Azadi, Məxdumqulu Fəraqi, Molla Nəfəs, Məmmədvəli Kəminə kimi məşhur sənətkarların yaradıcılığı, prof. E.İ.Əzizovun "Azərbaycan dilində keçid şivələr problemi" adlı elmi işində cənub-şərqdə Cəlilabad, Biləsuvar şivələri, nisbətən cənub-qərbdə yerləşmiş Zəngilan və Qubadlı rayonlarının şivələrinin keçid tipli şivələr olması araşdırılır, prof. M.D.Novruzovun "Türkmən və qaqauz dilləri" adlı elmi işində türkmən və qaqauz dilləri bir-biri ilə müqayisəli şəkildə öyrənilir, prof. M.Ə.Məmmədovun "Karaim dili" adlı elmi işində Karaim xalqının və dilinin mənşəyinə aydınlıq gətirilir, karaim dillərinin formalaşmasında qıpçaq tayfalarının həlledici rolu konkret faktlarla əsaslandırılır. Dos., f.e.d. F.A.Ağayevanın "Ə.Nəvai yaradıcılığının ideya-bədii xüsusiyyətləri" adlı elmi işində Azərbaycan ədəbiyyatının tanınmış sənətkarlarının Nəvai haqda məqalələri, tədqiqatları və monoqrafiyalarına xüsusi yer verilmiş, H.Araslının, M.Arifin, S.Vurğunun, S.Mümtazın Ə.Nəvai haqda yazılarına və fikirlərinə diqqət yetirilmişdir, dos. İ.D.Vəliyevin "Feilin təsriflənməyən formalarının tarixi inkişafı" adlı elmi işində feilin təsriflənməyən hər üç forması ayrı-ayrılıqda şərh olunur, həm məsdər, həm feili sifət, həm də feili bağlamaya aid XIII-XIV əsrlərdə qələmə almış yazılı abidələrdə toplanan nümunələr vasitəsilə qrammatik göstəricilərin yaratdıqları məna xüsusiyyətləri və fonetik fərqləri göstərilir. Dos. G.Q.Vəliyevanın "Dialekt frazeologiyası" adlı elmi işində xalq təfəkkürünün məhsulu olan dialekt frazelogiyası müxtəlif istiqamətlərdə araşdırılır, təhlil üçün kifayət qədər dialekt materialı toplanılaraq quruplaşdırılır, dos. Q.A.Abdullayevanın "XVII əsr Azərbaycan ədəbi dilində sintaktik yolla söz yaradıcılığı" adlı elmi işi XVII əsri təmsil edən görkəmli söz ustadlarının bizə miras qalan ədəbi-bədii dil nümunələri əsasında araşdırılır, Dos. S.M.Sadıqovanın "Nigari "Divan"ının frazeoloji sistemi" adlı elmi işində frazeoloji vahidlər və ya sabit söz birləşmələri ilə bağlı elmi nəzəri görüşlərə fəlsəfi poeziya müstəvisində nəzər yetirilmiş, Nigari yaradıcılığında onun işlənmə mexanizmi, üslubi çalarları tədqiq edilmiş və tarixi təkamül prosesi izlənmiş, dos. G.Ş.Əliyevanın "S.Dərvişin əsərlərində qadın obrazları" adlı elmi işində Cümhuriyyət dövrü Türkiyə ədəbiyyatında xüsusi mövqe tutan qadın yazarlardan biri Suad Dərvişin əsərlərindəki feminizm, fil.f.d. S.O.Ağayevanın "S.Əlinin əsərlərinin dil-üslub xüsusiyyətləri" adlı elmi işində yazıçının ziddiyyətli xarakterlərə sahib olan qəhrəmanlarının daxili nitqində gah ümidsizlik, bədbinlik, həyatdan küskünlük, gah da sevinc, həyata bağlılıq məsələləri, fil.f.d. F.Ə. Dursunovanın "İ.Aralın yaradıcılığında qadın obrazları" adlı elmi işində İnci Aral'ın "Ölü Erkək Quşlar" romanındakı Suna obrazı əsasında müasir türk qadının emansipasiyası məsələsi, türk müsəlman toplumunda nigah institutu adlanan sosial problem, dos. əv. A.C.Məmmədova "Qıpçaq qrup türk dillərində dilçilik terminləri (noqay dili)" adlı elmi işində elmi ədəbiyyatda işlənilməmiş bir mövzu olan türk dillərinin qıpçaq qrupunun dilçilik terminlərinin qarşılıqlı tədqiqi aparılır, noqay dilində əsasən Rus və Avropa dillərindən alınmış dilçilik terminlərinin digər türk dilləri ilə müqayisədə daha çox olduğu qənaətinə gəlinir. Dos.əv. F.Q.Kərimlinin "1920-ci illərdə Azərbaycan ədəbi dilində düzətmə sözlər" adlı elmi işində qeyd edilir ki, 20-ci illərdə söz yaradıcılığı prosesinə (düzətmə sözlərin yaradılmasına) strateji məsələ kimi baxılmış, ədəbi dilin "dirildilməsi" və zənginləşməsi üçün bu əsas yol sayılmış, bu hərəkatın tərəfdarları, məhz türk mənşəli köklərə şəkilçi artırmaqla yeni sözlər düzətmək mövqeyində dayansalar da, sonrakı illərdə həmin mövqe liberallaşmış, dildə işlənən bütün sözlərin bu prosesdə iştirakı məqbul görünmüşdür. Fil.f.d. K.N.Nəcəfovanın "Əbdülhəq Hamid və Azərbaycan ədəbiyyatı" adlı elmi işində XIX əsrin ikinci yarısı-XX əsrin birinci yarısında Türkiyənin ən böyük şairlərindən

olan Əbdülhəq Hamidin Azərbaycan ədiblərindən H.Cavid və M.Hadiyə təsiri, müəl. Q.Ş.Xanməmmədovun "M. Füzulinin dilində alınmalar" adlı elmi işində Füzuli dilindəki alınma leksk vahidlər araşdırılır.

**4. Dünya ədəbiyyatı kafedrası**

Struktur və ştat cədvəli

1. C.Q.Nağıyev-f.e.d.,prof.,kafedra müdiri, 1 ştat -1945
2. Ü.İ.Bədəlbəyli-f.e.d.,prof., 1 ştat-1939
3. N.A.Sadıxlı -fil.f.d.,dos., 1 ştat-1949
4. N.A.Həsənov- fil.f.d.,dos., 1 ştat-1954
5. S.T.Məmmədova- fil.f.d.,dos.,1 ştat-1965
6. N.F.Həsənova- fil.f.d.,dos.,0,5 ştat -1962
7. N.X.Al-Abbasi – fil.f.d.,müəl.,0,5 ştat -1969
8. A.R.Əliyev –baş laborant-1 ştat-1983
9. S.V.İbrahimova – laborant-1 ştat-1988

2017-ci ildə Dünya ədəbiyyatı kafedrasının əməkdaşları "XIX əsr Qərb ədəbiyyatı" istiqamətində "Qərb ədəbiyyatı tarixinin və nəzəriyyəsinin tədqiqi" problemi üzrə "XIX əsr Avropa ədəbiyyatı və onun əsas istiqamətləri" mövzusu sahəsində işləmişlər.

Prof. C.Nağıyevin "Bolqar romantizmi" adlı elmi işində Bolqar romantizminin N.Gerov, D.Çintulov, P.Sloveykov, Q.Rakovski kimi nümayəndələrinin yaradıcılığı, prof. Ü.Bədəlbəylinin "U.Tekkereyin həyat və yaradıcılığı" adlı elmi işində İngilis tənqidi realizminin görkəmli nümayəndələrindən olan U.Tekkereyin "Barri Lindonun karyerası", "Şöhrətpərəstlər" yarmarkası", "Düni Duval" kimi romanları; dos.N.Sadıxlının "Şandor Petefinin həyat və yaradıcılığı" adlı elmi işində görkəmli macar şairi Şandor Petefinin "Kənd çəkici", "Pəhləvan Yanoş", "Apostol" və s. əsərləri, dos. N.Həsənovanın "Prosper Merimenin həyat və yaradıcılığı" adlı elmi işində Fransız realist ədəbiyyatının görkəmli nümayəndəsi olan P.Merimenin "Kromvel", "Klara Qazyulun teatrı", "Quzla" və s. əsərləri, dos. S.Məmmədovanın "Yunan və Alban ədəbiyyatlarında tənqidi realizm" adlı elmi işində XIX əsrin II yarısında Yunanıstanda tənqidi realizmin görkəmli nümayəndələrindən olan Yanis Psixaris, Aleksandros Palis, Kleantis Mixailidis, Dmitris Xodzopolis və s. yazıçıların yaradıcılığı, dos. N.F.Həsənovanın "Elizabet Qaskelin həyat və yaradıcılığı" adlı elmi işində görkəmli ingilis yazıçısı E.Qaskellin "Meri Barton", "Krenford", "Baldız Filles" və s. əsərləri, dos. N.X.Al-Abbasinin "Georq. Büxnerin həyat və yaradıcılığı" adlı elmi işində məşhur alman dramaturqu G.Büxnerin həyatı və "Voyçek", "Mariya Tüdor" və s. əsərləri araşdırılır.

**5.Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası**

Struktur və ştat cədvəli

1. H.A.Əsgərov – 1959,Fil.e.d., professor, 0,5 ştat
2. R.İ.Quliyeva– 1947, f.ü.f.d, dosent, 1 ştat
3. R.D. Mahmudova – 1950, f.ü.f.d., dosent, 1ştat
4 M.Ə.Qurbanova - 1953, f.ü.f.d., dosent, 1ştat
5. Ə.H. Cavadov - 1956, f.ü.f.d., dosent, 1 ştat
6. İ.İ. Şəmsizadə – 1959, f.ü.f.d, dosent, 1ştat
7. M.Ə.Abdullayeva – 1961, fəl.e.d., professor, 1 ştat
8. S.Ş.Mustafayeva – 1971, f.ü.f.d., dosent 1 ştat
9. Ş.C.Abdullayeva – 1972, f.ü.f.d., dosent, 1 ştat
10.Ş.X.Əliyeva – 1962, p.ü.f.d.,dosent,0,5 ştat

11. E.H.Məmmədov – 1973, f.ü.f.d., dosent, 0,5 ştat
12.S.F.Nağıyeva – 1972, f.ü.f.d., müəllim , 0,5 ştat
13. S.H.Rzayeva - 1950, müəllim, 1ştat
14.G.N.Abbasova – 1956, baş müəllim,1 ştat

Kafedranın əməkdaşları 2017-ci ildə elmi işlərin iki istiqamətdə aparmışlar:
1.Azərbaycan dili və ədəbiyyatının tədqiqinin nəzəri və praktik məsələləri
2.Azərbaycan dili və ədəbiyyatının tədrisi məsələləri
Prof. H.Əsgərovun "Qloballaşma şəraitində Azərbaycan dilinin dövlət dili kimi inkişafı və ədəbi dil normalarının qorunması" adlı elmi işində müstəqillik illərində Azərbaycan dilinin tədrisi və tətbiqi işinin genişləndirilməsinin 2003-cü ilə kimi davam edən və ulu öndər Heydər Əliyevin adı ilə bağlı birinci dövrü, bu dövrdə Azərbaycan dilinin tədris, tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin elmi tədqiqinin genişləndirilməsindən, dos. R.Quliyevanın "Kurikulumda islahatlar, yeni kurikulum standartlarının yaradılması" adlı elmi işində ilk kurikulumun 1918-ci ildə yaranmasından, böyük bir zaman ərzində dünya miqyasında kurikulum haqqında ideyaların genişlənməsindən, müasir dövrdə artıq təhsil nəzəriyyəsi səviyyəsində formalaşmasından, dos. R.D.Mahmudovanın "Yazılı rabitəli nitqin inkişafı" adlı elmi işində tələbələrin yazılı rabitəli nitqini inkişaf etdirən bir sıra təlim üsullarından bəhs edilir, müxtəlif yazı növlərinin (imla, inşa, ifadə, referat, protokol, esse və s.) aparılması qaydaları göstərilir. Dos. M.Qurbanovanın "Türk mənşəli sözlər hesabına dilimizin zənginləşdirilməsi, lüğətlərdə əksi" adlı elmi işində Azərbaycan dilinə türk dilindən keçən sözlər və onların dilimizin lüğət tərkibinin zənginləşdirilməsindən, dos. Ə.Cavadovun "Ali təhsil pilləsinin dövlət standartı və proqramları və ana dilinin tədrisi" adlı elmi işində "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun hazırlanmış "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"ndan danışılır. Prof. M.Abdullayevanın "Erl Mak Kormakın koqnitiv metafora nəzəriyyəsi" adlı elmi işində qeyd edilir ki, Mak KorMak metaforanın yaranmasında iştirak edən koqnitiv prosesin bir-birini istisna etməyən ideal konstruksiyalarının üç səviyyəsini göstərir:Səthi dil; Semantika və sintaksis; İdrak. Dos. S.Mustafayevanın "Azərbaycan dilinin tədrisi 30-60-cı illərin (XX əsr) siyasi şəraitində" adlı elmi işində Azərbaycan dili tədrisi tarixinin metodoloji problemlərindən danışılır.

## 6.Azərbaycan dilçiliyi kafedrası

Struktur və ştat cədvəl

1. S.Ə.Abdullayeva-f.e.d.,prof.,kafedra müdiri-1951
2. T.M.Hacıyev-f.e.d.,prof., 1 ştat-1958
3. İ.H.Hacıyeva-f.e.d.,prof., 0,5 ştat-1964
4. Z.Ə.Şahbazova-f.e.d.,prof. əvəzi, 1 ştat -1948
5. İ.T.Məmmədov-fil.f.d.,dos., 1 ştat -1942
6. E.C.Həsənova- fil.f.d.,dos., 1 ştat -1940
7. F.F.Əlizadə- fil.f.d.,dos., 1 ştat -1951
8. Y.Ə.Məmmədli- fil.f.d.,dos., 1 ştat -1957
9. R.Y.Həbibli- fil.f.d.,dos., 1 ştat -1973
10. F.A.Şiriyev- fil.f.d.,dos. 0,5ştat (əvəzçi)-1957
11. N.M.Həsənova- fil.f.d.,müəl.,0,5 ştat-1977
12. M.S.Əlizadə-fil.f.d., b/müəl.,0,5 ştat- 1970
13. S.X.Vəliyeva-müəl., 0,5 şt., 1983 (analıq məzuniyyəti)
14. T.S.İsmayılova – müəl , 1 ştat -1973
15. Z.T.Məmmədova-b/laborant, 1 ştat -1959
16. A.A.Məhərrəmova-b/lab, 1 ştat-1969
17. N.A.Abdulhüseynli-laborant, 0,5 ştat-1993

2017-ci ildə Azərbaycan dilçiliyi kafedrasının əməkdaşları "Azərbaycan dilinin leksik, mofoloji, sintaktik sistemi və üslubiyyatı" adlı ümumi beşillik problemin mövzusu üzərində çalışıblar.

Prof.S.Ə.Abdullayevanın "Şifahi nitqə verilən tələblər" adlı elmi işində şifahi nitqin növləri, nitqi korlayan vasitələr, prof. T.M.Hacıyevin "Uşaq sözləri" adlı elmi işində dildə işlədilən, müxtəlif insan birliklərinə xidmət edən söz qruplarına daxil olan uşaq sözləri, f.e.d. İ.H.Hacıyevanın "Leksik normalaşmada dilxarici amillər" adlı elmi işində kütləvi informasiya vasitələri və ayrı-ayrı şəxslər-yazıçı və şairlər, jurnalistlər və digər qələm sahiblərinin dilin lüğət tərkibinin zənginləşməsində xüsusi rol oynaması, f.e.d. Z.Ə.Şahbazovanın "Xitab və ara sözlər" adlı elmi işində xitab, ara sözlərin cümlə ilə məna və qrammatik əlaqəsi, yaratdığı məna növləri, dos.İ.T.Məmmədovun "Dilin lüğət tərkibi və cəmiyyət" adlı elmi işində bütün tarixi dövrlərdə davam edən dil və cəmiyyət bağlılığı, dos. E.C.Həsənovanın "Mətnin formalaşmasında leksik təkrarların rolu" adlı elmi işində obrazlı nitqdə həm ekspressiv aksent, həm də əlaqə yaradan leksik təkrarlar araşdırılır. Dos. F.F.Əlizadənin "Yad dilləri doğmalaşdıran söz formalarında kök samitlərin deformasiyaya uğraması, danışıq dilində söz birləşmələrinin motivləşdirilməsi" adlı elmi işində iki və daha artıq dildə eyni kök samitlərinin ya orijinalda qalmasını və ya onunla yanaşı, normal və ya spontan əvəzlənmə, eliziya, proteza, metateza hesabına deformasiyaya uğramasını leksik faktlar əsasında üzə çıxarıb əsaslandırılır. Dos.Y.Ə.Məmmədlinin "Azərbaycan danışıq dilində söz birləşmələrinin motivləşdirilməsi" adlı elmi işində dilin lüğət tərkibində müəyyən təcrübə və təfəkkürün məhsulu kimi motivləşdirilmiş dil vahidləri, dos.R.Y.Həbiblinin "Terminoloji onomastik lüğətlər" adlı elmi işində onomastik lüğətlərin yaradılması prosesində əsas onomastik anlayışların müəyyən edilməsi, onların sistemləşdirilməsi və təsnifi, əlaqə və münasibətlərinin müəyyənləşdirilməsi, onomastik terminoloji sistemin təkmilləşdirilməsi üzrə işlər görülməsi, b/müəl. M.S.Əlizadənin "Bədii üslubda danışıq dilinin sintaktik xüsusiyyətləri" adlı elmi işində söz sırasının pozulması, təktərkibli təyini birləşmələrin işlədilməsi, rəngarəng xitab, ara söz və birləşmələrdən istifadə olunması və s. şəkildə təzahür edən danışıq dilinin sintaktik xüsusiyyətləri və s. problemlər araşdırılır.

## 7.Ümumi dilçilik kafedrası

Struktur və ştat cədvəli

1. Ə.Ə.Rəcəbli-fil.f.d., prof.-1936
2. Ş.V.Qasımova- fil.f.d., dos.-1935
3. M.T.Məmmədov- fil.f.d., dos.-1957
4. C.X.Muradov- fil.f.d., dos.-1966
5. F.N.Mehdiyev-b/m.-1948
6. E.H.Həmzəyeva- fil.f.d., b/m., 0,5 ştat-1959
7. S.Ə.Məmmədova-b/m.-1939
8. C.M.Əliyeva-b/m.-1946
9. Cəfərov N.Q.-AMEA-nın m.ü.,f.e.d.,prof., 0,5 ştat-əvəzçi-1959
10. L.F.Ələkbərova-b/lab.-1970

2017-ci ildə kafedranın əməkdaşları "Dillərin təsnifi" mözusunda araşdırma aparmışlar.
Prof. Ə.Ə.Rəcəblinin "Müasir-tarixi dilçiliyin prinsipləri" adlı elmi işində dilçilik elminin əsas budağı hesab edilən müqayisəli-tarix dilçilik, hind-Avropa müqayisəli-tarixi dilçiliyi, dos.Ş.V.Qasımovanın "Aqlütinativ dillər" adlı elmi işində aqqlütinativ dillərdən türk, fin, uqor, monqol, tunqus, mancur, batu, şumer dilləri, bu dillərin başqa dil tipləri ilə müqayisəsi, qarşılaşdırılması problemləri araşdırılır. Dos.M.T.Məmmədovun "Dillərin leksikası" adlı elmi işində müxtəlif dillərin leksikası müqayisəli planda öyrənilir, sözlərin struktur xüsusiyyətləri aydınlaşdırılır, onların tipoloji müqayisəsi aparılır. Dos.C.X.Muradovun "Analitizm və sintetizm" adlı elmi işində aşkar olunmuşdur ki, mütləq analitik və sintetik dillər yoxdur, belə ki, rus dili sintetik dil olsa da bu dildə bir çox köməkçi söz – bağlayıcılar, önlüklər, ədatlar istifadə olunur, intonasiya qrammatik rola malikdir, əks tendensiyanı analitik dillərdə müşahidə etmək olar. B/m. F.N. Mehdiyevin "Kvantitativ tipologiya" adlı elmi işində kvantitativ dilçiliyin əsas cəhətləri, fil.f.d. E.H.Həmzəyevanın "Müasir müqayisəli-tarixi dilçilik" adlı elmi işində müasir müqayisəli-tarixi dilçiliyi aktuallaşdıran, onun

inkişafına təsir göstərən amillər, b/m. S.Ə.Məmmədovanın "İspan dilinin formalaşması" adlı elmi işində İspan dilində danışan ölkələr, bu dilin əsas xüsusiyyətlər araşdırılır. B/m. C.M.Əliyevanın "Fransız dilinin formalaşması" adlı elmi işində fransız dilinin ilkin dövrü və əsasən XVI əsrdə onun formalaşması qrammatikada, fonetikada və leksikada baş verən güclü dəyişikliklər, maraqlı faktlar, müxtəlif dilçi alimlərin tədqiqatları, fərziyyələri öyrənilir, milli dilin formalaşması faktlarla izah olunur.

**8.Rus dili kafedrası (təbiət fakültələri üzrə)**

Struktur və ştat cədvəli

1. M.M.Cəfərov-f.e.d., prof., kafedra müdiri-1939
2. F.Y.Hüseynova-fil.f.d., dos.-1941
3. G.Ə.Qarabağlı-b/müəl.-1948
4. N.Ə.Əsədova-b/müəl.-1945
5. G.M.Sənani-b/müəl.-1941
6. D.Ə.Mustafayeva-b/müəl.-1951
7. Ş.Ə.Qasımova-b/müəl.-1940
8. G.M.Rəsulova-b/müəl.-1960.
9. D.A.Kazi-zadə-b/müəl.-1952
10. N.N.Mirbabayeva-b/müəl.-1964
11. N.N.Xəlilova – müəl.,0,5 ştat-1969
12. Z.Ə.Qurbanova-b/lab.-1948
13. Ə.A.Feyziyeva-b/lab.-1971

2017-ci ildə kafedranın əməkdaşları "Müasir dilçiliyin və rus dili tədrisi metodikasının nailiyyətlərinin tədris prosesində tətbiq olunması" problemi üzərində işləmişdir. Kafedranın müəllimləri dərs dedikləri fakültələrin tələbələri üçün rus dili üzrə metodik göstərişlər, dərs vəsaitləri və məlumat kitabçası hazırlamışlar.

Kafedranın müəllimləri "Rus dilinin tədrisində kommunikativ metodun tətbiq olunması", "Rus dilinin tədrisində situativ prinsipin tətbiqi", "Rus dilinin tədrisində kombinə edilmiş metodun tətbiq olunması", "Rus dilinin tədrisində interaktiv metodun tətbiqi", "Rus dilinin tədrisində problemli axtarış metodunun tətbiqi" plan işlərini yerinə yetirmişlər.

**9.Rus dili kafedrası (humanitar fakültələr üzrə)**

Struktur və ştat cədvəli

1. Ə.M.Paşayeva-prof.əv., kafedra müdiri -1943
2. T.Ə.Əliyev-p.ü.f.d., dos.-1951
3. E.Ə.Kərimov- fil.f.d., dos.-1955
4. H.M.Tağıyeva-fil.f.d., dos.-1952
5. R.S.İmanova- fil.f.d., dos.-1958
6. L.M.Ələkbərova- p.ü.f.d.,dos.-1969
7. S.S.Cəfərova- b/m.-1941
8. M.M.Sadıxova- b/m., 0,5 ştat-1944
9. Sona Çərkəz Məmməd q.- b/m.-1948
10. F.F.Ağamirova-müəl.-1966
11. X.M.Axundova- b/m.-1946
12. R.M.Əsgərova-b/m.-1947
13. Q.A.Əhmədova-b/m.,0,5 ştat,-1942
14. H.L.Quliyeva-b/m.-1943
15. L.F.Muradova-b/m.-1961

16. L.M.Quliyeva-b/m.-1950
17. Z.Ə.Mənsimova- b/m.-1957
18. K.M.Nuriyeva- b/müəl.,0,5 ştat-1947
19. E.A.Rzayeva- b/müəl.,0,5 şt.-1939.

Kafedranın 2017-ci ildə elmi-tədqiqat işlərinin əsas istiqamətləri aşağıdakılar olmuşdur:

1.Dərs prosesinin tədris-metodik ədəbiyyatı ilə təminatı

2.Rus dilinin xarici dil kimi tədrisinin metodikası.

Humanitar fakültələr üzrə Rus dili kafedrasının 2017-ci ildə elmi işləri "Rus dilinin tədrisi metodikası" probleminə həsr olunmuşdur.

## 10.Rus dilçiliyi kafedrası

Kafedranın struktur və ştat cədvəli.

1. L.H.Quliyeva-kaf.müdiri,f.e.d.,prof.-05.04.1942
2. S.A.Məhərrəmova-f.e.d.,prof.,24.11.1959
3. E.A.Heydərova-f.ü.f.d..,dos.- 28.07.1970
4. R.İ.İsmayılova- f.ü.f.d.,b/müəl.-04.10.1951
5. T.İ.İbrahimova- b.müəl.-20.09.1943
6. F.A.G.Məmmədbəyli-b.müəl.-09.10.1945
7. N.V.Xidirov- b.müəl.-11.05.1959
8. N.T.Zeynalova- b.müəl.-11.03.1957
9. R.A.Cəfərova-baş lab.-28.10.1946
10. S.Ə.Əliyeva- baş lab.-25.01.1956

2017-ci ildə Rus dilçiliyi kafedrasında elmi-tədqiqat işləri 3 mövzuda davam etdirilmişdir:

1. Rus ədəbi dilinin fonetik sisteminin inkişaf qanunauyğunluqları.
2. Müasir rus ədəbi dilinin leksik-qrammatik sistemi.
3. Rus dilinin tarixi məsələləri.

- Prof.L.H.Quliyeva ""Müxtəlif sistemli dillərdə şəxs adlarının transkripsiya və transliterasiya məsələləri (Azərbaycan, rus və çin dilləri)" adlı elmi işinin "Azərbaycan və çin şəxs adlarının transkripsiyası və transliterasiyası Azərbaycan şəxs adlarının çin dilində verilməsi" üzrə mərhələsini yerinə yetirmiş, prof. S.A.Məhərrəmovanın "Mətnin linqvistik təhlili (linqvokulturoloji və koqnitiv aspektlər)" adlı elmi işində elmi üslub milli elmi təfəkkürün ifadəsi kimi araşdırılır, dos. E.A.Heydərovanın "Dilçilik məktəbləri. Dilçiliyin metodoloji prinsipləri" adlı elmi işində Rus dilini başqa Hind-Avropa dilləri ilə müqayisə etmək ideyasının yaranması, dilçilikdə tarixilik prinsipi, başqa dillərin Sanskrit ilə yaxınlığı, Moskva Linqvistik məktəbi, F.F.Fortunatovun fəaliyyəti və s. məsələlər, B/m. R.İ.İbrahimovanın "Müasir rus dilində son illərdə tətbiq olunan neologizmlərin istifadəsi" adlı elmi işində müasir rus dilində son illərdə tətbiq olunan, başqa dillərdən alınan neologizmlər, onların oxşar sözlərdən fərqləndirilməsi araşdırılır. B/m. T.İ.İbrahimova "Rus dilinin leksikologiyası və fonetikası terminləri və definisiyaları" adlı elmi işinin "Məlumat kitabının tərkibi və çapa hazırlanması" üzrə mərhələsini yerinə yetirmişdir. B/m. F.A.Məmmədbəylinin "Müasir rus dili. Morfologiya" adlı elmi işində müasir rus dilində dəyişməyən nitq hissələri, modal sözlər, köməkçi nitq hissələri, nida və s. araşdırılır. B/m. N.V.Xidirov ""Şahdağ dilləri qrupunda qrammatik kateqoriyalar" adlı elmi işinin "Bulud dilində felin təsirli və təsirsiz növləri" üzrə mərhələsini, b/m. N.T.Zeynalova "Rus dilində feilin növ tutuşdurulmasının semantik tipləri"adlı elmi işinin "Natamam tərzin ümumfaktiki mənası (keçmiş zaman formaları)" üzrə mərhələsini yerinə yetirmişdir.

## 11. Rus ədəbiyyatı tarixi

Struktur və ştat cədvəli

1. A.C.Hacıyev-f.e.d.,prof.,kafedra müdiri, 0,5 ştat-1947

2. L.Z.Gərayzadə-f.e.d., prof., 1 ştat -1947
3. M.A.Yaqubova –fil.f.d.,dos., 1 ştat -1948
4. Ə.M.Paşayeva- fil.f.d.,dos.,0,5 ştat -1943 (əvəzçi )
5. S.A.Əliyeva- fil.f.d.,dos., 1 ştat -1958
6. R.H.Bağırov- fil.f.d.,dos., 1 ştat -1955
7. T.Q.Məmmədova-baş müəl., 1 ştat -1973
8. T.X.Məmmədov-müəl.,0,5 şt.-1963
9. A.N.Bağırova fil.f.d., dos.,1 şt.-1983
10. A.P.Məmmədova- b/lab., 1 ştat-1972

Kafedranın əməkdaşları "Ədəbi əlaqələr və ədəbiyyatın zənginləşməsi" və "Rus ədəbiyyatının formalaşma yolları və inkişafının tarixi mərhələləri" üzərində elmi-tədqiqat işlərini yerinə yetirmişdir.

Prof. A.C.Hacıyevin "Vladimir Luqovskoy və Şərq" adlı elmi işində rus-Şərq ədəbi əlaqələri, Vladimir Luqovskoy həyat və yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında əks olunması məsələləri, prof. L.Z.Gərayzadənin "O. Süleymenovun yaradıcılığında din motivləri" adlı elmi işində O.J.Süleymanovun yaradıcılığında dini motivlərin tədqiqi və təhlili, "Fərsiz oğuldan Yeva-Angeliye" əsərində dini problemlər, dos.M.A.Yaqubovanın "A.P. Çexovun dramaturgiyası" adlı elmi işində A.P. Çexovun yaradıcılıq irsi, onun Azərbaycan ədəbiyyatı tərəfindən mənimsənilməsi, "Üç bacı", "İvanov", "Vanya dayı", "Qaqayı", "Albalı bağ" kimi dram əsərləri, tərcümə problemləri, dos.S.Əliyevanın "Rus klassisizmdə Şərq motivləri" adlı elmi işində rus dilinə tərcümə edilmiş və XVIII əsrin jurnalisti N.İ.Novikovun «Pustomelya» və «Truten» jurnallarında çap olunmuş əsərlər, dos.R.H.Bağırovun "Rus şairlərinin 1920-ci illər yaradıcılığında Azərbaycan (1917-20-ci il)" adlı elmi işində həmin dövrün şairlərinin, o cümlədən S.Qorodetskinin "Zığ", V.İvanovun "Zığ", V.Xlebnikovun "Əməyin mövzusu", "B" V.Mayuvlovun "Bakı", "Bakı qalasında" və digər şeirlərində Azərbaycan sərvətinin-neftin, azərbaycanlı fəhlələrin və onların ailələrinin ağır iş və həyat şəraiti və digər problemlər araşdırılır, b/m.T.Q.Məmmədovanın "A.Blokun lirik publisistikası" adlı elmi işində A.Blokun lirik publisistikasının özünəməxsusluğunu müəyyənləşdirilir, b/m.T.X.Məmmədovun "Andrey Platonovun ənənələri rus ədəbiyyatında" adlı elmi işində XX əsrin ikinci yarısı rus yazıçılarının ("kənd" və "şəhər" nəsr nümayəndələri) əsərlərinin əsasında Andrey Platonovun poetikası ilə tipoloji əlaqələr, dos. A.N.Bağırovanın "Azərbaycan poeziyasında sonet çələngi janrı" adlı elmi işində Azərbaycan poeziyasnda sonetlər çələngi janrı, bu janrın Şəkər Aslan, Ə.Nasir, İ.Saleh və s. kimi nümayəndələrinin yaradıcılığı araşdırılır.

## 12.Alman və fransız dilləri kafedrası

Struktur və ştat cədvəli

1.Fərəcullayeva Elmira Nadir qızı, kafedra müdiri, dos., 0,5 ştat-1963
2.Abdullayeva Xədicə Ramiz q.- b/m,1,0 ştat-1962
3. Məmmədov Məşkur Lətif o.- b/m,1,0 ştat-1932
4.Həsənova Azelma Bəhram q.- b/m,0,5 ştat-1953
5.Əmiraslanova İradə Azər q.- b/m,1,0 ştat-1962
6.Allahverdiyeva Mətanət Əliş q.-b/ m, 1,0 ştat-1965
7.İsmayılova Ulduzə Səməd q.-bm, 1,0 ştat-1957
8.Bağırova Fatma Bilal q.- dos., 1,0 ştat-1948
9.Tarıverdiyeva Ofelya Murad q.- b/m, 1,0 ştat-1946
10.Orucova Məlahət İsa q.- b/m,1,0 ştat-1958
11.Quliyeva Sevil Soltanəli q.- b/m,1,0 ştat-1940
12.Piriyeva Əsli Camal q.- b/m,1,0 ştat-1949
13.İlyaslı Elmira Nosu q.- b/m, 1,0 ştat-1948
14.Şahəlizadə Ləman Bəxtiyar q.- m, 0,5 ştat-1978
15.Cabbarov Namiq Abbas o.-m, 0,5 ştat-1979
16.Süleymanova Elmira Yolçu q.-m, 0,5 ştat-1966

17.Ələkbərova Emilya Emil q.-m, 0,5 ştat-1981
18.Əliyeva Mətanət Xıdır q.-m., 0,5 ştat -1978
19.Yunusova Elnarə Faiq q.-b/l, 1,0 ştat-1977
20.Dadaşova Aysel Xalid q.- lab, 0,5 ştat-1991

Kafedrada "Azərbaycan ali məktəblərinin ixtisas fakültələrində fransız dilinin tədris metodikasının nəzəri əsasları" mövzusu üzrə 15 tədqiqat işi yerinə yetirilir. 2017-ci ildə kafedranın əməkdaşları bu mövzu ilə əlaqədar bir neçə proqram, dərs vəsaiti və məqalələr çap etdirmişlər.

**13.İngilis dili kafedrası**

Struktur və ştat cədvəli

1. A.Q.Abbasov –fəlsəfə doktoru,prof., kafedra müdiri,0,5 ştat-1942
2. İ.B.Əliyev-b/m., kafedra müdirinin müavini, 1 ştat -1962
3. T.İ.Qurbanova – dos.əv., b/m., 1 ştat-1938
4. N.B.Seyidzadə- dos., b/m., 1 ştat-1955
5. Q.İ.Əhmədov-dos., b/m., 1 ştat-1947
6. G.B.Kərimova- dos., b/m., 1 ştat-1961
7. G.L.Rəfibəyli- dos., b/m., 1 ştat-1977
8. S.Q.Əliyev- fil.f.d., b/m., 1 ştat-1948
9. G.Q.Xanbabayeva-fil.f.d.,b/m., 1 ştat-1962
10. E.İ.Tağıyeva – b/m., 1 şt.-1983
11. A.Ş.Hümbətova- fil.f.d., b/m., 1şt.-1981
12. M.Q.Ələsgərova-b/m., 1 ştat-1950
13. F.Ş.Şirinova- b/m., 1 ştat-1937
14. S.Q.Məmmədova- b/m.,1 ştat-1941
15. N.A.Orucova – b/m., 1 ştat -1948
16. L.M.Axundzadə- b/m., 1 ştat-1951
17. R.Y.Təhməzova- b/m., 1 ştat-1957
18. D.M.Quliyeva- b/m., 1 ştat-1956
19. Ş.M.Bünyadzadə- b/m., 1 ştat-1957
20. İ.R. İsmayılova -b/m., 1 ştat- 1988
21. N.A.Əliyeva – b/m., 1 ştat -1983
22. N.V.Seyidova –b/m., 1 ştat -1980
23. P.İ.Paşayeva – müəl., 1 ştat- 1984
24. N.N.Şirəlizadə-müəl., 1 ştat-1956
25. Y.İ.Ələsgərova- müəl., 1 ştat-1976
26. N.Q. Mahmudova –müəl., 1 ştat -1988
27. A.İ.Məmmədova-müəl.,0,5 ştat-1984
28. M.A.Qəhrəmanova -müəl.,0,5ştat-1960
29. Ş.Z.Səfərova- müəl.,0,5ştat-1968
30. Ü.Ş.Hüseynova-müəl.,0,5 ştat – 1982
31. R.A.Cəfərova –müəl., 0,5 ştat-1977
32. Ş.M.Balayeva-müəl., 0,5 ştat-1961
33. M.A.Mehdiyeva –müəl.,0,5 ştat-1970
34. R.C.Əliyeva-müəl., 0,5 ştat-1966
35. G.R.Müslümova-müəl., 0,5 ştat-1992
36. C.F.Hüseynova-müəl., 0,5 ştat-1980
37. G.Ş.Mustafayeva-müəl., 0,5 ştat-1984

2017- ci ildə İngilis dili kafedrasının əməkdaşları "Dilçilik" istiqamətində "Sahəvi lüğətlərin tərtibi məsələləri" problemi üzərində çalışmışlar. 2017-ci ildə dos.A.Abbasov, İ.Əliyev, M.Mehdiyeva,

P.Paşayeva, Ş.Səfərova, A.Hümbətova, S.Məmmədova, A.Məmmədova, R.Təhməzova, S.Əliyev, İ.İsmayılova, D.Quliyeva, P.Paşayeva, G.Xanbabayeva, L.Axundzadə və başqalarının dərs vəsaiti və lüğətləri çap olunmuşdur.

## 14.İngilis dili (humanitar fakültələr üzrə)

Struktur və ştat cədvəli

1. Dos. (f.e.n.) Hacıyev Bəylər İslamxan o. 1956 (0,5 ştat)
2. Dos. (f.e.n.) Ömərova Möminat Məhəmməd q. 1939 (1 ştat)
3. Dos. (f.e.n.) İbrahimova Nailə Xanməmməd q. 1964 (1 ştat)
4. Dos.əvəzi Şirəliyeva Şölə Mövsüm q.1945 (1 ştat).
5. B/m. Ələsgərova Zərifə İsrafil q.1947 (1 ştat)
6. B/m. Meybəliyeva Aybəniz Tələt q.1959 (1 ştat)
7. B/m. Əliyeva Məlahət Qəribağa q. 1961(1 ştat)
8. B/m. Ağayeva Cəmilə Musa q.1939 (1 ştat)
9. B/m. Nəcəfova Xatirə Kommunar q.1971 (1 ştat)
10. B/m. Fazilzadə Məryəm Abdulla q.1959 (1 ştat)
11. B/m. Xəlilova Bahar Suleyman q.1972 (1 ştat)
12. B/m. Sadiqova Nərgiz Ayaz q.1954 (1 ştat)
13. B/m. Sultanova Samirə Xəqani q.1980 (1 ştat)
14. B/m. Ağayeva Mənsurə Tiflis q.1964 (1 ştat)
15. B/m. Quliyeva Minarə Naryad q.1975 (1ştat )
16. f.e.f.d. müəl.Məmmədova Fərəh Əlixan q.1986 (1 ştat)
17. B/m. Əhmədova Zəhra Mirzaağa q.1981 (1ştat)
18. B/m..Əliyeva Ülviyyə Xalıqverdi q.1982 (1 ştat )
19. Müəl. Mürsəlov Rizvan Cavanxan o.1971 (1 ştat)
20. dos. (f.e.n.) İsmayılova Afaq İmaş q.1965 (0,5 ştat)
21. B/m. Mehtiyeva Tamilla Dadaş q.1958 ( 0,5 ştat)
